## RISKLƏRIN IDARƏ EDILMƏSI DEPARTAMENTININ

## Ə S A S N A M Ə S İ

### 1. Ümumi müddəalar

1.1. **Risklərin Idarə Edilməsi Departamenti** (bundan sonra RD adlanacaqdır) "Banklar haqqında Azərbaycan Respublikası Qanunu", Azərbaycan Respublikası Milli Bankının risklərin idarə edilməsi sahəsindəki normativ sənədləri, Azkreditbank ASC-nin Nizamnaməsi, risklərin idarə edilməsi üzrə Bazel Komitəsinin tövsiyəlri və bu Əsasnamə əsasında fəaliyyət göstərir.

1.2. RD bankın bütün növ risklərinin idarə olunması siyasətinin icrasını təmin edən "arxa ofis" funksional struktur bölməsidir.

1.3. RD-yə rəhbərliyi onun Direktoru həyata keçirir və o, birbaşa İdarə Heyətinin Sədrinə hesabat verir.

### 2. RD-nin səlahiyyət və vəzifələri

2.1. RD bu Əsasnamə ilə ona verilmiş aşağıdakı hüquqlara malikdir:

2.1.1. Kredit, aktiv\passivlərin idarə edilməsi Komitələrində təmsil olunmaq;

2.1.2. risklərin idarə edilməsi prinsiplərinə və qaydalarına bankın bütün strukturlarının riayət etməsini tələb etmək;

2.1.3. ona ayrılmış büdcədən istifadə etmək.

2.1.4. Aktiv\passivlərin, habelə risklərin idarə edilməsi üzrə siyasətin hazırlanmasında iştirak etmək;

2.1.5. Bazar, valyuta və faiz limitlərinə riayət olunmasın xəzinədarlıq işçilərindən tələb etmək;

2.1.6. Limitdən artıq əqdlər bağlanmasını dayandırmaq.

2.1.7. Maliyyə bazarlarında əqdlər bağlanmamışdın əvvəl limitlərə riayət olunmasına qabaqcadan nəzarət;

2.1.8. Müəyyən olunmuş limitdən yuxarı əqdlər üzrə müvafiq qərar olmadıqda, əqdlərin bağlanılmasını dayandırmaq.

2.2. RD aşağıdakı əsas vəzifələri həyata keçirir:

2.2.1. Bankın likvidlik və faiz siyasəti barədə təkliflər toplusunu hazırlayır və onu Aktiv/passivlərin idarə edilməsi Komitəsinin təsdiqinə verir.

2.2.2. Bankın likvidlik və faiz siyasətinin icrasına nəzarət edir.

2.2.3. Ölkə və bank limitləri barədə təkliflər hazırlayır, aktiv/passivlərin idarə edilməsi komitəsində təsdiq olunduqdan sonra onlara riayət olunmasına nəzarəti həyata keçirir.

2.2.4. Resursların limitlərini, qiymətlərini, onların cəlbetmə mənbələrinin müəyyənləşdirilməsində iştirak edir və onların icrasına nəzarəti həyata keçirir.

2.2.5. MŞ-nın, İH-nin, aktiv/passivlərin idarə edilməsi komitəsinin, Kredit Komitəsinin və Milli Bankın risklərin idarə edilməsi barəsindəki normativ sənədlərinin tələblərini yerinə yetirir.

2.2.6. Bankın fəaliyyəti ilə bağlı hər cür risklərin müəyyən olunması, sığortalanması prinsip və qaydalarını işləyib hazırlayır və onu İdarə Heyətinə təqdim edir.

2.2.7. Risklərin idarə edilməsi üzrə təsdiq olunmuş qaydalarla struktur bölmələrini tanış edir və bankdaxili seminarlar keçirir.

2.2.8. Bankın fəaliyyətində ortaya çıxa biləcək riskləri daima təhlil edir və onların sığortalanması yolları üzrə müştəri xidməti və kredit Departamentlərinə təlimatlar verir.

2.2.9. Risklərin idarə edilməsi işində bankın digər struktur bölmələrinə metodiki köməkliklər edir.

2.2.10. aktiv əməliyyatlar aparılmazdan əvvəl risklərin düzgün qiymətləndirilməsi və sığortalanmasına nəzarət edir.

2.2.11. Mütəmadi olaraq, bankın bütün fəaliyyəti üzrə risklilik göstəricilərini təhlil edir bu barədə konkret təkliflər hazırlayır, onları İdarə Heyətinə təqdim edir.

2.2.12. Kredit, zəmanət və layihə maliyyələşdirilməsi üzrə əməliyyatlar aparılmamışdan əvvəl bütün işlərin bankdaxili qaydalara müvafiq aparılmasına qabaqcadan nəzarəti həyata keçirir.

2.2.13. Kredit, zəmanət və layihə maliyyələşdirilməsi üzrə bağlanılmış əqdlərin yerinə yetirilməsi, kreditlər üzrə əsas məbləğlərin və faizlərin qrafikə uyğun ödənilməsi uçotunu aparır və bütövlükdə müqavilə şərtlərinə riayət olunmasına nəzarət edir (monitorinq istisna olunmaqla).

2.2.14. Kredit portfelinin keyfiyyətinə nəzarət edir.

2.2.15. Kredit portfelinin diversifikasiyası barədə Kredit Komitəsinə təkliflər verir.

2.2.16. Xəzinədarlıq Departamenti tərəfindən ölkə risklərinə riayət olunmasına nəzarəti həyata keçirir.

2.2.17. Bankın Menecmentinin bu Əsasnamə çərçivəsində RD-nin qarşısına qoymuş olduğu digər vəzifələri həyata keçirir.

2.3. Risklərin idarə edilməsinin qaydalarını müəyyənləşdirən zaman aşağıdakı prinsipləri rəhbər tutur:

2.3.1. risklərin növlərinin konkret olaraq müəyyənləşdirilməsi;

2.3.2. risklərin müəyyən olunması və sığortalanması metodlarının, bankın müvafiq işçilərinin vəzifələrinin aydın əks etdirilməsi;

2.3.3. risklərin düzgün idarə edilməməsi nəticəsində banka dəymiş zərərə görə maddi və mənəvi məsuliyyətin dərəcəsi.

2.4. Risklərin idarə edilməsinin vəziyyəti barədə mütəmadi olaraq İdarə heyətinin sədrinə hesabat təqdim edir.

2.5. Riskli sahələrdə biznes fəaliyyətinin məhdudlaşdırılması barədə İdarə Heyətinə məlumatlar verir.

2.6. Bankın risklərinin idarə edilməsi və onun təhlükəsizliyi üçün tam məsuliyyət daşıyır.

**2.7.** RD-nin işçiləri onların səhv hərəkətləri nəticəsində banka dəymiş zərərə görə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq, həm maddi, həm də mənəvi məsuliyyət daşıyırlar.

## 3. RD-nin fəaliyyəti

3.1. Öz hüquq və vəzifələri çərçivəsində aşağıdakı konkret fəaliyyətləri həyata keçirir:

3.1.1. Risklərin idarə edilməsi qaydalarını işləyib hazırlayır.

3.1.2. Risklərin idarə edilməsi üzrə qaydalarla müvafiq struktur bölmələrinin işçilərini təlimatlandırır.

3.1.3. Bankın fəaliyyətində riskli sahələri yüksək, orta və aşağı riskli sahələrə təsnifləşdirir və onların sığortalanması prinsiplərinə riayət olunmasına gündəlik nəzarəti həyata keçirir.

3.1.4. Kredit, investisiya, zəmanət, dilinqlə bağlı aktiv əməliyyatlar üzrə əqdlərə, bu əməliyyatlar aparılmamışdan əvvəl risklərin düzgün sığortalanması nöqteyi-nəzərindən öz münasibətini bildirir.

3.1.5. Risklərin növləri üzrə, onların vəziyyəti barədə Maliyyə menecmenti departamentinin müəyyən etdiyi forma və müddətdə hesabatlar hazırlayır.

3.1.6. Dilerlər tərəfindən əqdlərin bağlandığı tarixə bazardakı qiymətlərə baxır və əqdin daha sərfəli şərtlərlə bağlanmasını yoxlayır.

3.1.7. Dilerlərin və bazarların gəlirliliyini təhlil edir və təkliflər hazırlayaraq, Departament Direktoruna təqdim edir.

3.1.8. Kredit verildikdən sonra kreditin qrafikə uyğun əsas məbləğinin və faizinin ödənilməsinə gündəlik nəzarəti həyata keçirir.

## 4. Qərarvermə səlahiyyəti

4.1. RD-nin kreditləşmə üzrə bankdaxili qaydaların pozulması, risklərin düzgün qiymətləndirilməməsi və ya sığorta olunmaması hallarında kreditləşmə üzrə sənədləri Kredit departamentinə geri qaytarmaq, kreditlərin və ya onların faizlərinin ödənilməsində gecikmələr olduqda isə əlavə monitorinqlərin keçirilməsinə sərəncam vermək səlahiyyəti vardır.